# Sərhəd itib, zolaq itib, xətt itib...



Mövlud TEYMUR

### DAŞ

Gücüm çatmır güc eləyim bu daşa,
Daşı atan yaman atıb bu başa.
İndi olub bir möcüzə, tamaşa,
Üzü xal-xal, köksü çapıq-capıqdır!
Sevən qəlbdən bu daşa yangı düşüb,
Nakam eşqdən bayatı, ağı düşüb.
Əsrlərin isti, soyuğu düşüb,
Üzü xal-xal, köksü çapıq-capıqdır!
Yağış yuyub, sel aparıb xəttini,
Bilmək olmur, sezmək olmur dərdini.
Kim arasın namərdini, mərdini,
Üzü xal-xal, köksü çapıq-capıqdır!
Səhl Sumbat dönük çıxıb əhdinə,
Qucaq açıb Babək kimi mərdinə,
Qol qoyubdur düşmənlərin şərtinə,
Üzü xal-xal, köksü çapıq-capıqdır!
Koroğlunun odlu nəfəsi dəyib,
Qaçaq Nəbi tarixindən söz deyib.
Qatır Məmməd dözmüsən çox, döz deyib,
Üzü xal-xal, köksü çapıq-capıqdır!
Mövlud Teymur ulu zatımdır deyir,
Öz adımdır, öz soyadımdır deyir.
Nə düşmənim, nə də yadımdır deyir,
Üzü xal-xal, köksü çapıq-capıqdır!

### Turş dünya

Dolun harda qalıbdı,
A boş dünya, boş dünya!
Soyuğun kəsdi bizi,
İstin hanı, qış dünya!

Yay yay deyil, qış da qış,
Gətirməyir qəlb duruş.
Üzünü tut bir soruş:
Niyə daşsan, daş dünya!

Kasıba verədin pul,
Ulaq verdin, bir də çul.
Eylədin bizi yoxsul,
Çaşbaş dünya, çaş dünya!

Şeş deyənə yek verdin,
Əlinə tütək verdin,
Çal doyunca bərk dedin:-
Yorul, qal da loş, dünya!

Mövlud tamaşaçıdı,
Bu halına acıdı.
Şirinin də acıdı,
Turş dünyasan, turş dünya!

### QALIRSAN MAT-MSSSSTTSSL

*Dünyagörmüş ağsaqqal Novruz Ağayevə*

Dünyanı görürsən, ərzi görürsən,
Dərəni görürsən, düzü görürsən.
Bilmirsən kim kimdi, düzü, görürsən,
Qalırsan mat-məəttəl, ay Novruz dayı!

Qarışqa özünü filtək göstərir.
Tülkü də özünü pələng göstərir.
Şeytan da özünü mələk göstərir,
Qalırsan mat-məəttəl, ay Novruz dayı!

Bilmirsən dağ dağdı, təpə təpədi?
Dalğa dalğadımı, ləpə ləpədi?
Həqiqət həqiqət, "çepe-çepedi?!
Qalırsan mat-məəttəl, ay Novruz dayı!

Dərdini deməyə üz tapmayırsan,
Əyri xirtdəyəcən, düz tapmayırsan.
İynə axtarırsan, biz tapmayırsan,
Qalırsan mat-məəttəl, ay Novruz dayı!

Kimi qaralayıb, kimi sancasan,
Hara yön alasan, hara qaçasan.
Hər yanda gic, satqın, hər yanda şeytan,
Qalırsan mat-məəttəl, ay Novruz dayı!

Dərdim çox, sərim çox, açıb deməyə,
Kimi çağırasan, kimi köməyə.
Gördüm ki, layiqdir çoxu "öl" məyə,
Qalırsan mat-məəttəl, ay Novruz dayı!
1992

### DUMAN

Gah dağa yön alır, gah da dərəyə,
Soba tüstüsü tək burulan duman.
Dərədə dincəlir, döşdə yayxanır,
Zirvədə ləhləyib yorulan duman!

Dönüb ağ örpəyə, bəmbəyaz ağa,
Sürünür gah sola, gah da ki, sağa.
Olubdur dost, həmdəm dövrana, çağa,
Füsunkar dağlara vurulan duman!

Ayağı dərədi, başı zirvədi,
Yatır şirin-şirin ona görədi.
Sevgisi torpağa, doğma yerədi,
Geniş qucağına sarılan duman!

### KÖHNƏLİB

Dağ da, daş da köhnəlib,
Ətək, baş da köhnəlib.
Göz də qaş da köhnəlib,
Bu nə dərddi, mərəzdi!?

Dünən açan üzdə qış,
Alında şırım, qırış.
De kim bizi qarğamış,
Bu nə dərddi, mərəzdi!?

Qonşumu tanımadım,
Barıtı var bir atım.
Yorular atsa addım,
Bu nə dərddi, mərəzdi!?

Yerdən qalxa bilmirəm
Pillə çıxa bilmirəm.
Dərdə baxa bilmirəm,
Bu nə dərddi, mərəzdi!?

Köhnəlmişik , nimdaşıq,
Tənək əlik, bir daşıq.
Cansız bir vətəndaşıq,
Bu nə dərddi, mərəzdi!?

### ÖTKƏMLİK

*Əvəzi yola saldıq, xəstəliyi diabet,*
*Dünən Mikayılsız qaldıq, xəstəliyi diabet.*
*Dörd yanını su oymuş qaya kimi durmuşam,*
*Çatar bir gün mənə də lakin bir belə növbət.*
**Rəsul Rza**

Hərədə bir cürdür Allah verən dərd,
Birində yumşaqdır, birindəsə sərt.
Kimi ürəyini tutur, ay aman...
Ölür...başdaşını yazır da zaman!

Təzyiq məni tapdı, girəvələdi,
Dedim, mən insanam bu nə tələdi?!
Rədd ol, rədd ol-dedim, çıx get canımdan,
Mən sair adamam, ürək adamı.
Getdi, mənə qoydu xoş arzu, kamı!

Bir də dönüb gəldi, sıxdı başımı,
Gördü ki, qaldıra bilmir daşımı.
Gördü Nizaminin əzmi məndədir,
Sabiri, Seyid Əzimi məndədir!

Qələmimi alıb getmək istədi,
Gördü Koroğlunu əlində qılınc,
Hücuma hazırdır Qırat üstədi!

Qan təzyiqli sıxıntını.. saymıram mən,
saymıram mən!
Bu mərəzi tapdalayıb keçirəm!
Bundan betər paxıllığı demirəm!
Nanəcibi, nadanlığı demirəm!

Hərədə bir cürdür Allah verən dərd,
Mən dəva-dərmanı eyləyirəm rədd!
Seir içirəm, seir içirəm, dava-dərman yerinə,
Nizami evinə gedirəm yenə!

Mərdlik yazıb ünvanımı, yerimi,
Heç nə kəsməz Nəsimitək dərimi.
İnsan ömrü nur, işıqla doldu,
Təmiz, ülvi yaraşıqla doludu.

Kim deyir ki, insan ömrü bir andı,
Hər bir andan doğulan şir,azmandı!
Qaranlıqdan, cəhənnəmdən gor-yerdən,
Alnıaçıq çıxıram da bilin mən!

Hərədə bir cürdür Allah verən dərd,
Qan təzyiqim getdi, oldu məndən rədd!
Gördü öndə Rəsul Rza, Səməddi,
Arxada da duran Nazim Hikmətdi!

### DƏRD

Mən qaçanam, o axtaran,
Harda olsam tapır məni.
Əjdaha tək ağzın açıb,
Aman vermir, qapır məni!

Yeyir içdən uf da demir.
Mən təmizə saf da demir.
Çıxarmayır bir səs-səmir,
Atıb insaf, mürvətini!

Mən yazığa bir od qoyur,
Nə baş-beyin, nə ord qoyur.
Ürəyimə bir çat qoyur,
Çıxır başdan tüstü, çəni!

Qoymur ömrü vuram başa,
Vətən olum vətəndaşa.
İzim düşsün bir sal daşa,
Qorusunlar xatirəmi!
2007

### UNUTQANLIQ ELSSMSSYSSK

Günəş doğub, çəmən gülür, çöl gülür,
Ancaq gülmür arzuların günəşi.
Məni sıxır haqsızlığın havası,
Buza tutub sinəmdəki atəşi!

Həb içirəm, həb də kömək eləmir,
Haldan salıb məni ağrı, acılar.
Deyirəm ki, tutqun könlüm de, nə vaxt,
Aydın, açıq səma kimi açılar?!

Gözləməkdən gözüm kökü saraldı,
Qara gəldi qara bəxtim, taleyim.
Niyə qara güvvələrin niyyəti,
Kəsilməyir üstümüzdən, bir deyin !?

Sərhəd itib, zolaq itib, xətt itib,
Yağı gəlib gözümüzə soxulub.
Dərd, möhnətdən başımız bir tərəfə,
Üstəlik əl-ayağımız yığılıb!

Daha giley, daha umudan keçib,
Unutqanlıq eləməyək bir an da.
Biz tezliklə qılaq çarə, bir əncam,
Dayanmayır buna vaxt da, zaman da!

### GÖZLƏYİRƏM

Mən nə qədər səbirliyəm,
Nə Əliyəm, nə Vəliyəm,
Bəlkə, bir az mən dəliyəm,
Dəlini də gözləyirəm!

Ağıllılar görüb məni,
Hörgüsünə hörüb məni.
Tufanına verib məni,
Yelini də gözləyirəm!

Səngərimi buraxmıram,
Şeşpərimi buraxmıram,
Düşmənimi buraxmıram,
Felini də gözləyirəm!

Doğru, dürüst amalım var,
Hündür, ən üst amalım var.
Rəvan, səlist amalım var,
Yolunu da gözləyirəm!

Mövlud, demə düz əyridi,
Bənövşə nazlı pəridi.
Dünya sağlam can yeridi,
Ölünü də gözləyirəm!

### BİR NAŞI ŞAİRSS

Hələ ser yazmğa təzə başlayıb,
Özünü filosof göstərən şair.
Sən öz gözlərində tiri görmərsən,
Özgə gözlərində tük görən şair!

Bir quru nəfəsdir yazdığın seir,
Ayağı bilinmir, qolu bilinmir.
Hər yerə çöp salıb qarışdırırsan,
Seirinin nə sağı, solu bilinmir!

Seir də yazanda elə yaz ki, sən,
Özünə bənzəyib oxşamasın da.
İndi ki daş üstdə daş qoymayırsan,
Seirin də qalmasın daş komasında!

### KÜLFƏTİNİ TANI

Dərdini yığ başına,
Külfətini tanı sən.
Sevincini, qəmini,
Nifrətini tanı sən!

Tanı kimdi qız dərdin,
Oğul dərdin, - ər dərdin.
Əkin, biçin, vəl, xırman,
Sahə dərdin, yer dərdin!

Dərz bağlayan dərdini,
Heç yadına salmıram.
Xırda-para dərdini,
Heç adına salmıram!

Yoxsa başın çox şişər,
Dönər yerin şarına,
Baş qoşmazsan sən daha,
Külfətinə-varına.

### TSSRPSSTMSS MSSNİ

Dərdim dərin yuxudadı,
Tərpətmə məni, tərpətmə!
Açılar yaramın qatı,
Tərpətmə məni, tərpətmə!

Əsr yarımdı yatıb, durmaz,
Gecələri satıb, durmaz.
Aşqabad tək batıb, durmaz,
Tərpətmə məni, tərpətmə!

Atan oxu bərk atıbdı,
Anıb xeyrin dərk atıbdı.
Qulağım da şəkk atıbdı,
Tərpətmə məni, tərpətmə!

Dərdim elə dərindədi,
Öz dərdində, sərindədi.
Çıxıb getmir yerindədi,
Tərpətmə məni, tərpətmə!

### DAHA BU DÜNYANIN NSSYİ YAXŞIDI

Altmış bahar gördüm, altmış qış gördüm,
Hər acdan, möhtacdan yalvarış gördüm,
Varlıdan, karlıdan qəm, təlaş gördüm,
Daha bu dünyanın nəyi yaxşıdı?!

Nadan mersedesdə, aqil kor atda,
Zəhmətkeş qarışqa, ayaqlar altda.
Oğru doğru yolda, düz bağrı çatda,
Daha bu dünyanın nəyi yaxşıdı?!

Daha götür-qoydan, fikirdən keçib,
Təmizin işi də kifirdən keçib.
Bizə nə keçibsə, kafirdən keçib,
Daha bu dünyanın nəyi yaxşıdı?!

Min qətl, müsibət, Qarabağ dərdi,
Namərd də aldadıb satıbdır mərdi.
Bu bir oyun idi, bi bir fənd idi,
Daha bu dünyanın nəyi yaxşıdı?!

Qalıb çoxu indi əlimyandıda...
Kasıb da, varlı da, adlı-sanlı da!
Hələ qısasımız qalıb qanlıda,
Daha bu dünyanın nəyi yaxşıdı?!

Mövlud, düzələsi iş müşkül olub,
Qarğa da oxuyur, bir bülbül olub,
Kövşənlikdə həşəm bir sünbül olub,
Daha bu dünyanın nəyi yaxşıdı?!
2019